**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# GƏLƏCƏK İBTİDAİ SİNİF MÜƏLLİMLƏRİNİN PEŞƏ SƏRİŞTƏLƏRİNİN FORMALAŞDIRILMASININ PEDAQOJİ ŞƏRTLƏRİ

İxtisas: 5804.01 – Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

Elm sahəsi: Pedaqogika

İddiaçı: **Fidan Emin qızı Əfəndiyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Naxçıvan – 2022**

Dissertasiya Bakı Slavyan Universitetinin Pedaqogika və psixologiya kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** pedaqoji elmlər doktoru, professor, Əməkdar elm xadimi
**Fərrux Abbas oğlu Rüstəmov**

**Rəsmi opponentlər:** pedaqoji elmlər doktoru, professor
**Hikmət Əbdül oğlu Əlizadə**

pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Heydər Allahyar oğlu Cəfərov**

pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Vahid Məmməd oğlu Rzayev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Naxçıvan Müəllimlər İnstitutu nəzdində fəaliyyət göstərən FD 2.40 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: pedaqoji elmlər doktoru, professor
**İsmayıl İsrafil oğlu Əliyev**
_________________

Dissertasiya şurasının elmi katibi: pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Qızıltac Tarverdi qızı Şahbazova**
_________________

Elmi seminarın sədri: pedaqoji elmlər doktoru, professor
**Ləzifə Nağı qızı Qasımova**
_________________

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Təhsilin inkişafı dünyada əhalinin rifah halının yaxşılaşması, həmçinin fərdin həyatının daha yüksək səviyyədə qurulması üçün zəmin yaradır. Təhsil insanlara texnologiyaları çevik mənimsəmək, əmək bazarında layiqli yer tutmaq, ömür boyu öyrənmə prosesinə qoşulmaq, sağlam həyat tərzi, ətraf mühitə münasibətdə düzgün mövqe seçmək imkanları verir. Cəmiyyətin həyatında təhsilin rolu təkcə təhsilalanın qazandığı bilik və bacarıqların iqtisadi amilə çevrilməsi ilə məhdudlaşmır. Təhsil prosesində əldə olunan bilik və bacarıqlar, həmçinin etik-əxlaqi norma və dəyərlər hər bir təhsilalanın cəmiyyətin layiqli üzvü olması üçün lazımi şərait yaradır, onu biliyi və etik davranışı sayəsində örnək ola biləcək həmkara, nümunəvi ailə üzvünə və vətəndaşa çevirir. İnsan kapitalının inkişafı məhz ölkənin təhsil sisteminin başlıca vəzifəsini təşkil edir. Sənaye cəmiyyətindən postsənaye cəmiyyətinə keçid nəticəsində biliyin statusu da dəyişib. Müasir dövrdə biliyin praktik dəyərə, konkret nəticələrin əldə edilməsinə xidmət etməsi təhsilalanın bir şəxsiyyət kimi formalaşdırılmasına istiqamətlənib. Təhsilin rəqabətəqabilliyi cəmiyyətin inkişaf tendensiyasına uyğun olaraq mütərəqqi dinamizm tələb edir.

Son 30-40 il ərzindəki elmi-texnoloji tərəqqi, innovasiyalar və modernləşmə nəticəsində praktik bilik və vərdişlərlə zənginləşməyən, sırf nəzəri xarakter daşıyan təhsil öz fundamental əhəmiyyətini itirməkdədir. Bu baxımdan, təhsilin məzmununun formalaşdırılmasında akademik biliklərlə yanaşı, praktik bilik və bacarıqların, səriştənin vacibliyi də önə çəkilir. Azərbaycan təhsilində köklü məzmun islahatları aparmadan cəmiyyətin müasir tələblərinə uyğun şəxsiyyət yetişdirmək mümkün olmazdı.

"Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurrikulumu)" sənədinin qəbulu ilə bu sahədə uğurlu addımlar atıldı. Ulu öndər Heydər Əliyevin "Təhsil millətin gələcəyidir" müddəası ilə özülü qoyulmuş milli təhsil siyasəti onun üç mühüm tövsiyəsi əsasında yenidən quruldu: 1) qazanılmış təcrübənin öyrənilməsi və mütərəqqi ənənələrin əsas götürülməsi; 2) dünyanın inkişaf etmiş ölkələrinin qabaqcıl təcrübələrinin əxz olunması,

quruculuq işlərində onlara istinad edilməsi; 3) aparılan islahat işlərində tələsikliyə yol verilməməsi, təkamül yolunun seçilməsi.

Hafizə məktəbindən təfəkkür məktəbinə keçid prosesində təhsilin, xüsusilə də, ibtidai təhsilin keyfiyyəti məsələsi önə çəkildi. Çünki keyfiyyət anlayışında şagirdlərin bir şəxsiyyət kimi təhsil prosesində qazanmış olduğu bacarıqlar (kompetensiyalar) əhatə olunur. Onlar şagirdin idraki, hissi və psixomotor fəaliyyətlərinin fonunda bütöv şəxsiyyətin inkişaf səviyyəsini göstərə bilir. Bunlar şagirdlərin qazanmış olduğu və hələ qabiliyyətlər səviyyəsinə çatmayan bilik və bacarıqlarından fərqlənir. İbtidai təhsilin məqsəd, məzmun, metod, vasitə, texnologiya və qiymətləndirmə konsepsiyasının müasir tələblərə uyğunlaşdırılması *ibtidai sinif müəllimi hazırlığına* da yeni tələblər verdi. İbtidai sinif şagirdlərində həyati bacarıqların formalaşdırılması ibtidai sinif müəllimlərdən yüksək məsuliyyət və pedaqoji səriştə tələb edir. İbtidai sinif şagirdərinin hansı səriştələrə (özünüdərk, özünütənzimləmə, sosialdərketmə, qərar qəbul etmək, problem həll etmək, tənqidi düşünmək, əməkdaşlıq, yaradıcılıq və innovasiya, sahibkarlıq, informasiya savadlılığı, sosial vərdişlər, sağlam həyat tərzi, ekoloji dərketmə, tədqiqatçılıq vərdişi və s) yiyələnməsi vacib hesab olunursa, həmin səriştələr gələcək ibtidai sinif müəllimlərində daha yüksək səviyyədə formalaşdırılmalıdır.

Səriştə (kompetensiya) – əldə olunmuş bilik və bacarıqları praktik fəaliyyətdə effektiv və səmərəli tətbiq etmək qabiliyyətidir. O, fərdin qazandığı bilik və bacarıqların konkret fəaliyyətin nəticəsinə çevrilməsini təmin edir. Səriştəyə əsaslanan təhsil sosial-iqtisadi inkişafa daha effektli xidmət göstərir. Belə təhsil prosesini isə məhz yüksək peşəkarlığa və səriştəyə malik müəllimlər həyata keçirə bilər. UNESKO-nun da sənədlərində (2013) göstərildiyi kimi, hər bir ölkədə təhsilin keyfiyyəti əsasən onun müəllim ordusunun keyfiyyətindən qaynaqlanır. Odur ki, müəllimin təhsilinin keyfiyyətini yüksəltməklə tədris və təlimin keyfiyyətinin yüksəldilməsində sıçrayışa nail olmaq mümkündür. Müəllimin peşəkarlığı və səriştəliliyi onun üçün zəruri olan bir çox keyfiyyətlərin sintezindən yaranaraq formalaşır. Peşəkarlıq və səriştəliliyin əsas göstəricisi müəllimin peşə fəaliyyəti və onun əsas komponentləri – dərs prosesi, onun səmərəlilik göstəriciləri,

müəllimşagird münasibətlərinin səviyyəsi, şagirdlərin dərsə münasibəti, müəllimin öyrətmə bacarıqları, müəllimin pedaqoji qabiliyyətləri, pedaqoji texnika və texnologiyanın rəngarəngliyi, müəllimin işə yaradıcı münasibəti, pedaqoji prosesə innovativ yanaşması, şagirdlərlə münasibətdə yüksək ünsiyyət mədəniyyətinə malik olması və s.-dən ibarətdir. Bunlar pedaqoji peşəkarlığın və səriştəliliyin əsas meyarları kimi müəllim fəaliyyətində mühüm yer tutur. Bütün bunlar bir daha sübut edir ki, təhsil sisteminin keyfiyyəti onun müəlliminin keyfiyyətindən üstün ola bilməz. Təhsil eksperti Ken Robinson haqlı olaraq deyir ki, *"dünyada elə bir təhsil sistemi yoxdur ki, müəllimdən yaxşı olsun. Müəllimsiz məktəbin inkişafı və çiçəklənməsi mümkün deyil"*.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiya"sında deyilir: *"Təhsilalanın savadlı və səriştəli şəxs kimi formalaşmasına müəllimin təsiri onun akademik bacarıqlarından, tədris təcrübəsindən və peşəkarlıq səviyyəsindən xeyli asılıdır. Müəllimin bu keyfiyyətləri ilə təhsilalanların nailiyyətləri arasında sıx korrelyasiya mövcuddur"*[1].

Bu səbəbdəndir ki, keçən əsrin 90-cı illərinin axırlarından başlayaraq ölkədə müəllim kadrları hazırlığı sahəsində islahatlara başlanılmış, yeni təhsil standartları, tədris plan və proqramları hazırlanmış, gələcək ibtidai sinif müəllimləri hazırlığının məzmunu təkmilləşdirilmiş, 2008-ci ildə "Azərbaycan Respublikasında ibtidai sinif müəllimi hazırlığının Çərçivə Kurikulumu" tətbiq olunmuşdur. Dünya təhsil təcrübəsi göstərir ki, hər beş ildən bir təhsil proqramlarında müəyyən dəyişikliklər edilir. Müəllim kadrları hazırlığını daha da təkmilləşdirmək məqsədi ilə yeni təhsil proqramlarının hazırlanması məhz həmin zərurətdən yaranmışdır. İbtidai sinif müəllimiliyi ixtisası ilə bağlı son illərdə (2014, 2015 və 2020-ci illərdə) yeni təhsil proqramları hazırlanmışdır. Milli dəyərlərə və xarici təcrübəyə istinad etməklə hazırlanan bu təhsil proqramları daha keyfiyyətli və səriştəli ibtidai sinif müəllimi hazırlığına hədəflənib.

---

[1] Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası // Xalq qəzeti, 2013, 24 oktyabr

2020-ci ildə ölkədə müəllim kadrları hazırlığını həyata keçirən ali təhsil müəssisələrinin nümayəndələrinin və mütəxəssislərin təmsil olunduğu “Təhsil ixtisasları qrupu üzrə Dövlət təhsil proqramını hazırlayan işçi qrup” formalaşdırıldı. Mükəmməlliyi ilə seçilən yeni təhsil proqramları 28 avqust 2020-ci ildə Azərbaycan Respublikasının Təhsil naziri tərəfindən təsdiq edildi. Tədqiqatımızla əlaqədar olaraq yalnız İbtidai sinif sinif müəllimliyi ixtisasının təhsil proqramını və onun əsasında hazırlanmış tədris planını müqayisəli şəkildə təhlilə cəlb etmişik. Qeyd edilməlidir ki, ibtidai sinif müəllimliyi ixtisasının tədris planı digər müəllimlik ixtisaslarının tədris planları ilə müqayisədə həmişə xeyli mükəmməl olub. Bunun da başlıca səbəbi ibtidai sinif müəllimliyi ixtisasında ümumi saatların mühüm bir hissəsinin pedaqogika, psixologiya və ibtidai siniflərdə tədris olunan fənlərin tədrisi metodikasına ayrılmasıdır. Bu fərq 2020-ci ildə təsdiq olunan tədris planlarında da aydın şəkildə görünür. Məsələn, ibtidai sinif müəllimliyi ixtisasında ümumi auditoriya saatlarının (cəmi 2310 saat) 1530 saatı (66,2%) pedaqogika, psixologiya və fənlərin tədrisi metodikası üçün nəzərdə tutulmuşdur. Azərbaycan dili və ədəbiyyatı müəllimliyi ixtisasında isə 2310 saatdan 465 saatı (20,1%) pedaqoji-psixoloji fənlərə, Azərbaycan dili və ədəbiyyatın tədrisi metodikasına ayrılmışdır.

İbtidai sinif müəllimliyi ixtisası üzrə yeni tədris planında daxil edilən fənlər (təhsil fəlsəfəsi, inklüziv təhsil, təhsil və pedaqoji fikir tarixi, təhsil sistemləri və layihələrin idarəedilməsi, ibtidai siniflərdə kurikulum) də gələcək ibtidai sinif müəllimlərinin ümumi və peşə kompetensiyalarının formalaşdırılmasına istiqamətləndirilmişdir. Tədris planlarını müqayisəli şəkildə təhlil edərkən digər ixtisaslarla bağlı hazırlanan tədris planlarında ixtisas fənlərinin tədrisinə daha çox vaxt ayrıldığı məlum oldu. İxtisas fənlərinin daha dərindən və əhatəli şəkildə öyrənilməsi vacib olsa da, bu, gələcək müəllimlərdə zəruri peşə səriştələri formalaşdıran fənlərin saatlarının azaldılması hesabına olmamalıdır.

Qeyd etmək lazımdır ki, gələcək ibtidai sinif müəllimlərinin peşə səriştələrinin formalaşdırılmasının imkan və yollarının araşdırılması, pedaqoji şərtlərin müəyyənləşdirilməsi pedaqoji nəzəriyyə və praktika üçün aktual problem olaraq qalır. Tədqiqatın

aktuallığı onunla şərtlənir ki, burada gələcək ibtidai sinif müəllimlərində peşə səriştələrinin formalaşdırılması üçün pedaqoji şərtlər müəyyənləşdirilir.

**Tədqiqatın obyektini** ibtidai sinif müəllimlərinin peşə kompetensiyaları təşkil edir.

**Tədqiqatın predmetini** gələcək ibtidai sinif müəllimlərində peşə kompetensiyalarının formalaşdırılmasının pedaqoji şərtləri təşkil edir.

**Tədqiqatın məqsədi** gələcək ibtidai sinif müəllimlərində peşə kompetensiyalarının formalaşdırılmasının nəzəri əsaslarını və gələcək müəllimlərdə səriştələrin formalaşdırılmasının imkan və yollarını müəyyənləşdirməkdən ibarətdir.

**Tədqiqat vəzifələri** aşağıdakılardır:

– pedaqoji kompetensiyaların mahiyyətini müəyyən etmək;

– elmi-pedaqoji ədəbiyyatda problemin qoyuluşunu araşdırmaq;

– Azərbaycanda ibtidai sinif müəllimlərinin hazırlanması standartların təkmilləşdirilməsinin əsas istiqamətlərini təhlil etmək;

– təlim prosesində gələcək ibtidai sinif müəllimlərində peşə kompetensiyalarının formalaşdırılmasının imkan və yollarını müəyyənləşdirmək;

– gələcək ibtidai sinif müəllimlərində peşə səriştələrinin formalaşmasında pedaqoji təcrübənin yerini və rolunu müəyyənləşdirmək;

– ali pedaqoji təhsil sistemində gələcək ibtidai sinif müəllimlərinin peşə səriştələrinin formalaşdırılması şərtlərini müəyyənləşdirmək.

**Tədqiqatın fərziyyəsi.** Əgər ibtidai sinif müəllimi hazırlığını həyata keçirən ali pedaqoji məktəblərdə təhsilverici, tərbiyəedici və inkişafetdirici mühit yaradılarsa, peşə səriştələrini formalaşdırmağın şərtləri müəyyənləşdirilərsə və təlim prosesində onlar nəzərə alınarsa gələcək ibtidai sinif müəllimlərində zəruri peşə kompetensiyalarını formalaşdırmaq mümkün olar.

**Tədqiqatın metodları:** müşahidə, müsahibə, anketləşdirmə, elmi-pedaqoji ədəbiyyatın təhlili, qabaqcıl təcrübənin öyrənilməsi, eksperiment.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir: 1) təlim prosesində tələbələrdə pe şə kompetensiyalarının formalaşdırılması modeli işlənib hazırlanmış və sınaqdan keçirilmişdir; 2) ali pedaqoji təhsil sistemində gələcək ibtidai sinif müəllimlərinin peşə səriştələrinin formalaşmasının təşkilati-pedaqoji şərtləri müəyyən edilmiş və əsaslandırılmışdır; 3) ali pedaqoji təhsildə gələcək ibtidai sinif müəllimlərinin peşə kom petensiyalarının mərhələli şəkildə formalaş dırılmasının optimal yolları müəyyənləşdirilmişdir; 4) ali pedaqoji təhsildə gələcək ibtidai sinif müəllimlərinin peşə səriştələrinin formalaşma səviyyəsinin meyarları müəyyənləşdirilmişdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti**. Gələcək ibtidai sinif müəllimlərinin peşə səriştələrinin formalaşdırılmasının, məzmunun, kriteriyalarının və şərtlərinin müəyyənlədirilməsi pedaqoji nəzəriyyəni yeni müddəalarla zənginləşdirə bilər.

**Tədqiqatın praktiki əhəmiyyəti** ondan ibarətdir ki, təklif edilən model gələcək ibtidai sinif müəllimlərində peşə səritəsinin formalaşdırılmasında mühüm rol oynaya bilər. Tədqiqatın nəticələri təlim prosesində və pedaqoji təcrübə dövründə gələcək ibtidai sinif müəllimlərinin peşə səriştələrinin formalaşmasına kömək edə bilər.

**Müdafiəyə çıxarılan müddəalar:**

– gələcək ibtidai sinif müəllimlərində peşə səriştəliliyinin formalaşdırılması onların sonrakı pedaqoji fəaliyyətinin səmərəli təşkilini təmin edir;

– hazırlanmış təhsil proqramları və əsaslandırılmış tövsiyələr gələcək müəllimlərin peşə səriştəliliyinin inkişafında mühüm rol oynayır;

– gələcək ibtidai sinif müəllimlərində peşə səriştəliliyin inkişafında əlverişli və sağlam təhsil şəraitinin yaradılması mühüm rol oynayır;

– gələcək ibtidai sinif müəllimlərində peşə səriştəliliyinin formalaşdırılmasının səmərəliliyini müvafiq təşkilati-pedaqoji şəraitin yaradılması (tövsiyə, xüsusi proqramların və s. işlənib hazırlanması) təmin edilir.

– gələcək ibtidai sinif müəllimlərində ümumi və peşə səriştəliliyinin formalaşması təhsil standartlarının mükəmməlliyindən,

pedaqoji təhsilin məzmunundan və pedaqoji təcrübənin səmərəli təşkilindən asılıdır.

**Tədqiqatın nəticələrinin tətbiqi və aprobasiyası.** Tədqiqatın nəticələri beynəlxalq və respublika səviyyəli konfranslarda, kafedranın və fakültənin elmi seminarlarında müzakirə olunub, Azərbayan Respublikasının Prezidenti yanında AAK-ın tövsiyə etdiyi jurnallarda 12 məqalə nəşr olunub.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Disserasiya işi Bakı Slavyan Universitetinin Pedaqogika və psixologiya kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın strukturu və həcmi.** Dissertasiyanın giriş hissəsi 15 210, I fəsli 74 038, II fəsli 164 410, nəticə hissəsi 8871 işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**"Giriş"**də tədqiqatın aktuallığı, predmeti, məqsədi, vəzifələri, elmi yeniliyi, tədqiqatın nəzəri və praktik əhəmiyyəti, müdafiəyə çıxarılan müddəalar əsaslandırılır.

Dissertasiya iki fəsildən ibarətdir. Birinci fəsil ***"Gələcək ibtidai sinif müəllimlərinin peşə səriştələrinin formalaşmasının nəzəri problemləri"*** adlanır. Birinci paraqraf *pedaqoji səriştəlilik anlayışının mahiyyətini* dəqiqləşdirir. Paraqrafda təsdiq edilir ki, ibtidai sinif müəlliminin peşə səriştəsi onun pedaqoji fəaliyyətinin həyata keçirilməsinə nəzəri və praktik hazırlığının vəhdətidir.

"Səriştəlilik" termini koqnitiv psixologiyadan götürülmüşdür[2]. "Səriştəlilik" anlayışı polisemiyaya, yəni çoxmənalılığa malikdir. Səriştəli şəxs müəyyən bir sahədə ona səmərəli fəaliyyət göstərməyə və bu sahə ilə bağlı ağlabatan mühakimə yürütməyə imkan verən müvafiq bilik və bacarıqlara malikdir. Səriştəlilik təhsilalanların keyfiyyətlərinin (artıq mövcud olan şəxsiyyət keyfiyyətlərinin) məcmusu və verilmiş sahədə maksimum fəaliyyət təcrübəsidir. Müəyyən sosial və şəxsi əhəmiyyətli sahədə onun fəaliyyət təcrübəsi ilə şərtlənən təhsilalanın şəxsi keyfiyyətlərinin (dəyərlər-məna

---

[2] Андерсон, Дж. Когнитивная психология. / Дж.Андерсон. Спб: -Питер, -2002, -стр.12.

oriyentasiyaları, biliklər, bacarıqlar, vərdişlər, qabiliyyətlər) məcmusu – səriştəlilikdir. O, həmişə şəxsi xüsusi tələbə keyfiyyətlərini əhatə edir. Tələbə belə keyfiyyətlərin bütün spektrinə malikdir – məna və dünyagörüşündən (bu səriştə mənə nə üçün lazımdır) reflektiv-qiymətləndirmə qabiliyyətinə qədər (mən bu səriştəni həyatda nə dərəcədə uğurla tətbiq edirəm).

Tələbə üçün səriştələr – onun gələcəyinin obrazıdır. Bu səriştələr ona dünyanı dərk etmək üçün oriyentir ola bilər. Təhsil müddətində şagirddə "böyüklərin" müəyyən səriştələri formalaşır ki, ona nəinki gələcəyə hazırlaşmaq, həm də indiki şəraitdə yaşamaq üçün lazımdır. O, bu səriştələri təhsil nöqteyi-nəzərindən öyrənir. Beləliklə, tələbə zəruri səriştəni universitetdə mənimsəyir, lakin onun komponentlərindən yalnız təhsilini başa vurduqdan sonra istifadə edir. O, bu səriştələri oxuduğu müddətdə öyrəndiyi üçün, müvafiq olaraq, onlar təhsil kimi görünür.

Latın mənşəli "kompetere" sözü rus dilinə tərcümədə "uyğunlaşmaq", "əlaqələndirmək", "münasib olmaq" deməkdir. Ojeqovun izahlı lüğətində aşağıdakı tərif verilir: səriştələr insanın yaxşı bildiyi bilik dairəsidir. O, əldə edilmiş bacarıqlara, vərdişlərə və təcrübələrə əsaslanır, bu da öz növbəsində müəyyən fəaliyyət göstərmək və ya qarşıya qoyulmuş vəzifələri yerinə yetirmək qabiliyyətini təmin edir.

Müvafiq pedaqoji ədəbiyyatda bacarıqların səviyyə və növ üzrə təsnifatına rast gəlinir. Xüsusilə, səviyyə üzrə fərqləndirilir: 1) əsas səriştələr (universal, baza, elementar); 2) metapredmet (ümumtəhsil, fənn); 3) fənn (xüsusi).

Paraqrafdakı səriştə haqqında alimlərin fikirlərini təhlil edərək, əsas səriştələrin təyin edilməsi müasir pedaqogikanın əsas paradiqmalarına aiddir: fəal və interaktiv tədris metodlarından istifadə, yeni məlumatların öyrənilməsi prosesində yeni təhsil məlumatlarının tətbiqi, biliklərin öz-özünə çıxarılması, lider mövqe tutmaq, subyektivliyi, bərabərliyi, şagirdin paritetini tanımaq.

Dissertasiyanın ikinci paraqrafında *elmi-pedaqoji ədəbiyyatda pedaqoji kompetensiyaların formalaşdırılması* problemi araşdırılır.

Azərbaycanlı (M.Mehdizadə, B.A.Əhmədov, H.M.Əhmədov, N.M.Kazımov, Z.İ.Qaralov, Ə.Ə.Ağayev, Ə.X.Paşayev,

A.O.Mehrabov, H.Ə.Əlizadə, L.N.Qasımova, F.A.Rüstəmov, A.N.Abbasov, M.İ.İlyasov və b.) və rus (O.A.Abdullina, S.İ.Arxangelski, V.A.Slastiyonin, Y.K.Babanski, V.S.İlyin, İ.Y.Lerner, V.A.Kan-Kalik, N.D.Nikandrov, A.V.Mudrik, L.K.İ.Qreben və b.) alimlərinin pedaqoji səriştə (pedaqoji qabiliyyətlər) sahəsində apardıqları tədqiqatlar müqayisə olunur, təhlil edilir və ümumiləşdirilir.

Dissertasiyanın ikinci fəsli ***"Gələcək ibtidai məktəb müəllimlərinin peşə səriştələrinin formalaşdırılması texnologiyaları"*** adlanır. Bu fəsil 5 paraqrafdan ibarətdir. Birinci paraqraf *"Azərbaycanda ibtidai sinif müəllimlərinin hazırlıq standartlarının təkmilləşdirilməsinin əsas istiqamətləri"* adlanır. Burada Azərbaycanın ali təhsil müəssisələrində İbtidai sinif müəllimliyi ixtisası üzrə təhsil alan gələcək müəllimlərin dörd il müddətində yiyələnməli olacağı ümumi kompetensiyalar verilir. Bu kompetensiyaların vəhdəti gələcək ibtidai sinif müəllimlərinin peşə potensialını xarakterizə edir.

Peşə səriştələri gələcək müəllimlərin öz vəzifələrini lazımi səviyyədə yerinə yetirmək qabiliyyətini müəyyən edir. Qeyd etmək lazımdır ki, peşə potensialı müəllimin peşəkar fəaliyyətində öz əksini tapır. Müəllimin peşə potensialı sisteminin struktur hissələri pedaqoji hazırlıq və peşə fəaliyyətinin istiqamətləridir. Gələcək ibtidai sinif müəllimlərinin peşə potensialının struktur komponentləri aşağıdakı kimi təsnif edilə bilər: 1) pedaqoji peşəyə hazırlıq mədəniyyəti; 2) pedaqoji yaradıcılıq; 3) müəllimin peşəkarlığı.

Universitet gələcəkdə uğurlu müəllim olmaq üçün onlara lazımi səriştələr verə bilərmi? İbtidai sinif müəllimliyi ixtisası üzrə ölkənin bütün ali məktəblərində tətbiq edilən yeni təhsil proqramı bu tələblərə cavab verirmi? İstifadə edilən təhsil proqramından onun özəl xüsusiyyəti nədən ibarətdir? Yeni təhsil proqramı gələcək ibtidai sinif müəllimlərində zəruri pedaqoji səriştələri formalaşdırmağı, onlarda pedaqoji hadisə və proseslərə bacarıqlı və peşəkar yanaşmanı təmin edə biləcəkmi?

2008-ci və 2015-ci illərə nisbətən 2020-ci ildən istifadə edilən İbtidai sinif müəllimliyi ixtisası üzrə yeni təhsil proqramında əhəmiyyətli fərqlər vardır. Hər şeydən əvvəl, bu fərq həftəlik saatlarla bağlıdır. 2008-ci ildə həftəlik saatlar 26, 2015-ci ildə 24, 2020-ci ildən isə 22-dir. Həftəlik tədris yükünün azalması, təbii ki,

saatların ümumi sayının azaldılması hesabına baş verib. 2008-ci ildə ibtidai sinif müəllimlərinin hazırlanmasına 3000, 2014-ci ildə 2520, 2020-ci ildə isə cəmi 2310 auditoriya saatı ayrılmışdır. Bununla yanaşı, təhsil proqramına yeni fənlər daxil edilmiş, psixoloji-pedaqoji fənlərin kreditləri xeyli artırılmışdır.

İkinci paraqraf *"Təlim prosesində gələcək ibtidai sinif müəllimlərinin peşə səriştəsinin formalaşdırılması"* adlanır. İbtidai sinif müəllimləri hazırlayan ali təhsil müəssisələrində təhsil prosesində gələcək müəllimlərin peşə səriştəsinin formalaşması üçün müxtəlif modellər təklif etmək olar. Dissertasiya işində tədris prosesinin subyekti kimi çıxış edən pedaqogika və psixologiya müəllimlərinin iştirakı ilə tələbələr arasında peşə səriştəsinin formalaşması ilə əlaqədar aşağıdakı model daha məqsədəuyğun hesab edilir.

**Gələcək ibtidai sinif müəllimlərinin peşə səriştəliliyinin formalaşdırılması mərhələləri**

Cədvəl 2.2.1

<table>
<tr><td colspan="3">Gələcək ibtidai məktəb müəllimləri</td></tr>
<tr><td>I mərhələ</td><td>II mərhələ</td><td>III mərhələ</td></tr>
<tr><td>reproduktiv adaptasiya</td><td>aktiv fəaliyyət</td><td>yaradıcı-transformasiya</td></tr>
<tr><td>gələcək müəllimlərdə peşə səriştələrinin formalaşması şərtləri</td><td colspan="2">gələcək müəllimlərdə peşə səriştələrin formalaşması texnologiyasının komponentləri</td></tr>
<tr><td>- şəxsi oriyentasiya;<br>- özünü reallaşdırmaq və öz potensialını dərk etmək;<br>- yaradıcı təhsil mühitinin yaradılması;<br>- pedaqoji fəaliyyət üçün motivasiya;<br>- müəllim-şagird əməkdaşlığı</td><td>- məqsəd<br>- emosiyalar və motivasiya<br>- məzmun</td><td>- əməliyyat-fəaliyyət<br>- nəzarət və qiymətləndirmə<br>- effektiv korreksiya</td></tr>
</table>

Bəzi yanaşmalarda 4 səviyyə əsas götürülür: 1) reproduktiv səviyyə (müəllim xaotik şəkildə bildiyini təmin edir); 2) adaptiv səviyyə (müəllim bildiyi şeyləri sinif tələblərinə uyğunlaşdıra bilər); 3) modelləşdirmə səviyyəsi (müxtəlif metodik biliklərə və bacarıqlara malik müəllim bu məqsədə nail olmaq məqsədini və yollarını dəqiq müəyyən edə bilər); 4) sistem səviyyəsi (müəllim lazımi bilik və bacarıqlara malik olmaqla, şagirdlərdə özünü tərbiyə və özünü tərbiyə qabiliyyətini formalaşdırır).

Beləliklə, tədris prosesində gələcək ibtidai sinif müəllimlərində zəruri peşə səriştələrinin formalaşdırılması bir neçə amildən asılıdır: 1) tələbənin pedaqoji peşəyə yararlı olması; 2) müəllim peşəsini seçənlərin daxili motivasiyası və intellektual potensialı; 3) ali məktəb müəlliminin peşəkarlığı; 4) kreditlərin sayı, psixo-pedaqoji fənlər; 5) pedaqoji fənlərin məzmununun gələcək müəllimlərin ümumi və peşə səriştələrinin formalaşmasına yönəldilməsi; 6) gələcək müəllimlərdən dəyərlər sisteminin yaradılması və s.

Fəslin üçüncü paraqrafı *"Pedaqoji təcrübə dövründə gələcək ibtidai sinif müəllimlərinin peşə səriştələrinin formalaşdırılması"* adlanır.

Tələbələrin pedaqoji təcrübəsi kompleks strukturlu bir sistemdir. Bu baxımdan, gələcək ibtidai sinif müəllimlərinin pedaqoji fəaliyyətə hazırlanması və onlarda peşə səriştəsinin formalaşdırılması zamanı pedaqoji təcrübə çox böyük əhəmiyyət kəsb edir. Gələcək ibtidai sinif müəllimlərinin pedaqoji təcrübəsinin əsas məqsədi müəllimə xas olan peşəkar qabiliyyət, bacarıq və vərdişlər formalaşdırmaqdır. Pedaqoji təcrübə zamanı tələbələr şagirdlərin müasir tələblərə uyğun tərbiyə olunması məqsədilə təlim-tərbiyə prosesinin vəhdətini təmin etməyi öyrənir, müəllim-tərbiyəçinin peşəkar fəaliyyətinin real problemləri dairəsinə daxil olur, əsas məzmunu və işininin həcmi ilə tanış olurlar. Bununla əlaqədar, pedaqoji təcrübə dövründə tələbələr aşağıdakı istiqamətlər üzrə təlim-tərbiyə işləri aparırlar: psixo-pedaqoji, ayrı-ayrı şagirdlərin və kollektivlərin öyrənilməsi, tədris işinin layihələndirilməsi, açıq dərslərin təşkili, sinifdənkənar fəaliyyət, valideynlərlə, sinif rəhbərləri ilə, məktəb psixoloqları ilə iş və s.

Ümumilikdə bu işin əsas istiqamətlərini aşağıdakı kimi müəyyən etmək olar: 1) fənn üzrə təlim-tərbiyə işi; 2) məktəbin tədris-tərbiyə işi ilə tanışlıq; 3) sinif rəhbərinin köməkçisi funksiyasını yerinə yetirmək; 4) metodik iş; 5) tədqiqat işi.

Gələcək ibtidai sinif müəllimlərinin pedaqoji təcrübəsinin əsas vəzifəsi ali məktəblərdə müxtəlif fənlər üzrə aldıqları nəzəri bilikləri möhkəmlətmək və dərinləşdirmək, onları təcrübə zamanı aparılan təlim – tərbiyə işlərində yaradıcılıqla istifadə etmək, I-IV sinif şagirdləri ilə aparılan tədris-tərbiyə işini müşahidə etmək və təhlil etmək, müasir tədris metodlarını, ixtisasları üzrə yeni pedaqoji texnologiyaları tətbiq etmək bacarığını formalaşdırmaqdan ibarətdir; şagirdlərə psixologiya, pedaqogika, metodika və şagirdlərin yaş və fərdi xüsusiyyətləri nəzərə alınmaqla əldə etdikləri biliklərə əsaslanaraq təlim-tərbiyə işini aparmağı öyrətmək. Bu bacarıqların hər biri gələcək ibtidai sinif müəlliminin zəruri peşə səriştələridir. Bu səriştələrin əksəriyyətinin əsası ali məktəbdə tədris prosesində gələcək ibtidai sinif müəllimlərində qoyulsa da, pedaqoji təcrübə dövründə tam formalaşır və başa çatır.

Pedaqoji təcrübənin məqsədyönlü təşkili nəticəsində gələcək ibtidai sinif müəllimləri aşağıdakı bacarıqlara yiyələnirlər:

- uşaqları sinifdə birləşdirmək, işləri planlaşdırmaq, vəzifələri bölüşdürmək, görülən işləri ümumiləşdirmək bacarığı;
- didaktik materialları, əyani vəsaitləri, alətləri seçmək və hazırlamaq, didaktik materialları başa düşülən, aydın, ifadəli, inandırıcı və ardıcıl formada izah etmək bacarığı;
- təlim prosesində inklüziv təhsil texnologiyalarından istifadə etmək, uşaqların düşüncə tərzini anlamaq, onların daxili aləmini görmək, onların emosional vəziyyətini obyektiv qiymətləndirmək, yaş, fərdi, psixoloji, anatomik və fizioloji xüsusiyyətləri müəyyən etmək və onları tədris prosesində nəzərə almaq bacarığı;
- şagirdlər, onların valideynləri ilə məqsədyönlü ünsiyyət qurmaq bacarığı, müxtəlif innovativ təhsil resursları və texnologiyalarından istifadə etməklə ibtidai siniflərdə tədris prosesinin səmərəliliyini və keyfiyyətini yüksəltmək bacarığı və s.

Beləliklə, gələcək ibtidai sinif müəllimlərinin pedaqoji təcrübəsi 4 əsas funksiyanı yerinə yetirir: 1) tədris funksiyası; 2) tərbiyəvi funksiya; 3) inkişafetdirici funksiya; 4) nəzarət funksiyası.

Pedaqoji təcrübənin *öyrədici funksiyası* – gələcək ibtidai sinif müəllimlərinin nəzəri biliklərinin dərinləşdirilməsi; *tərbiyə funksiyası* – tələbədə peşəkar və şəxsi keyfiyyətlərin formalaşdırılması; *inkişaf funksiyası* – tələbənin şəxsiyyət kimi formalaşmasının təmin edilməsi; *nəzarət funksiyası* – pedaqoji təcrübənin səmərəliliyinin təmin edilməsi, tələbənin pedaqoji fəaliyyətinin keyfiyyətinin idarə edilməsində, məqsədyönlü korreksiyaların aparılmasında özünü göstərir.

Pedaqoji təcrübə zamanı hər bir tələbə şəxsi iradəlilik və emosional keyfiyyətlərdən xəbərdar olmaqla yanaşı, pedaqoji fəaliyyət üçün zəruri olan peşə vərdişlərinə və bacarıqlarına, yəni didaktik (tədris qabiliyyəti), akademik (ixtisasla bağlı innovasiyaları bilmək), konstruktiv (tədrisin inkişafının layihələndirilməsi), kommunikativ (ünsiyyət), təşkilati (şagirdlərin fəaliyyətinin və asudə vaxtlarının düzgün təşkili) bacarıqlara yiyələnir. Pedaqoji təcrübə zamanı gələcək ibtidai sinif müəllimləri də tədqiqat bacarıqlarını inkişaf etdirirlər. Beləliklə, tələbələr özfəaliyyət işlərinin, kurs və diplom işlərinin yazılması üçün materiallar toplayır, pedaqoji təcrübənin daha səmərəli təşkili üçün tövsiyələr hazırlayırlar.

Fəslin dördüncü paraqrafı *"Gələcək ibtidai sinif müəllimlərinin peşə səriştələrinin formalaşmasının monitorinqi"* adlanır.

Ali pedaqoji təhsil müəssisələrində gələcək ibtidai sinif müəllimlərində peşə səriştələrinin formalaşdırılması üzrə eksperiment üç mərhələdə (formalaşdırıcı, müəyyənedici, nəzarət) aparılmışdır. Hər mərhələdə ardıcıl olaraq bir sıra vəzifələr həll edilmişdir.

Təklif olunan metodikanın mahiyyəti ondan ibarətdir ki, burada gələcək müəllimlərin pedaqoji fəaliyyətə hazırlığı ilə bağlı üç məsələ öz həllini tapır: 1) Mən müəllim olmaq istəyirəm və bunun üçün bacarığım var (fərdi hazırlıq); 2) "bilirəm" (nəzəri hazırlıq), "bacarıram" və "sahibəm" (praktik fəaliyyət); 3) "alıram" – müəllimin fəaliyyətinin səmərəliliyi.

Eksperimentdə iştirak edən tələbələrə müəllimin pedaqoji səriştələri barədə fikirlərini öyrənmək üçün anket suallarını cavablandırmaq təklif olundu. Sorğuda İbtidai sinif müəllimliyi

ixtisası üzrə BSU-da təhsil alan 235 tələbə – gələcək ibtidai sinif müəllimləri iştirak ediblər.

Eksperiment zamanı təcrübi qrupda iştirak edən gələcək müəllimlərin peşə səriştəsi (ilkin pedaqoji bilik, bacarıq və vərdişlər) səviyyəsini müəyyənləşdirmək bizim əsas vəzifəmizdir. Təcrübə göstərir ki, ümumtəhsil məktəblərində yalnız öz tədris nailiyyətləri ilə deyil, həm də sosial fəallığı və liderlik keyfiyyətləri ilə seçilən şagirdlər var.

Tədricən məktəb illərində bu cür şagirdlərdə müəyyən səriştələr formalaşmağa başlayır. Məktəb ictimai təşkilatlarında öz liderliyi ilə seçilən şagirdlər buraxılış siniflərində müəllim kimi davranmağa çalışır, sinif yoldaşlarına hörmət və tələbkarlıqları ilə fərqlənir, bəzi hallarda isə hətta məktəb tədbirlərinə rəhbərlik edir, elm, incəsənət və ədəbiyyat sahəsinin tanınmış nümayəndələri ilə görüşlər təşkil edirlər.

**Gələcək ibtidai sinif müəllimlərinin peşə səriştəliliyinin səviyyəsi**

Cədvəl 2.4.1.

| Peşə səriştəliliyinin səviyyəsi | Eksperimental qrup | Nəzarət qrupu |
|---|---|---|
| 1. İntuitiv səviyyə | 95 tələbə (81%) | 93 tələbə (79,5%) |
| 2.Stereotipik-reproduktiv səviyyə | 23 tələbə (19%) | 24 tələbə (20,5%) |
| 3.Axtarış-yaradıcılıq səviyyəsi | 0 % | 0 % |

Gələcək ibtidai sinif müəllimlərinin peşə səriştəliliyinin formalaşma səviyyəsini müəyyən etmək üçün müxtəlif meyarlardan istifadə olunur. Eksperimentdə iştirak edən gələcək müəllimlər arasında peşə səriştələrinin formalaşma səviyyəsini aşağıdakı meyarlara əsasən müəyyən etdik: 1) məlumat və bilik; 2) aksioloji; 3) həvəsləndirici; 4) konstruktiv-fəaliyyət; 5) analitik-refleksiv.

**Gələcək ibtidai sinif müəllimlərində peşə səriştələrinin formalaşmasının meyarları və göstəriciləri**

Cədvəl 2.4.2

| Meyarlar | Göstəricilər |
|---|---|
| Məlumat-bilikli | Pedaqoji biliklərin həcmi, dərinliyi və davamlılığı: əsas anlayışlar və onların xüsusiyyətləri, təhsil və tərbiyənin əsas konsepsiyaları, müəllim və şagirdin fəaliyyətini tənzimləyən sənədlər, təlim-tərbiyə qanunauyğunluqları, prinsiplər, üsullar, təşkilat formaları, pedaqoji texnologiyalar, özünü tərbiyə metodları. |
| Aksioloji | Müəllimin aksioloji zənginliyi yeni dəyərlərin seçilməsinin effektivliyini, onların davranış motivlərinə və pedaqoji fəaliyyətə keçməsini müəyyən edir. Dəyərlər sisteminin dəyişməz komponenti kimi peşə səriştəsinə və pedaqoji təhsilə münasibət formalaşdırılır. Peşə səriştələrinin formalaşdırılması müəllimin şəxsi və peşəkar inkişafının əsas şərtidir. |
| Həvəsləndirici | Pedaqoji peşə səriştələrinin inkişafı və təkmilləşdirilməsi üçün daxili potensialın inkişaf etdirilməsi |
| Konstruktiv-fəaliyyət | Əsas səriştələri təşkil edən ümumpedaqoji bacarıqların (proqnozlaşdırıcı, konstruktiv, təşkilati, kommunikativ, idrak, refleksiv) formalaşdırılması; müxtəlif pedaqoji vəzifələrin səmərəli həlli, pedaqoji fəaliyyətin modelləşdirilməsi, optimal forma, metod və təlim-tərbiyə vasitələrinin seçilməsi, pedaqoji texnologiyaların səmərəli istifadəsi |
| Analitik-refleksiv | Peşə-pedaqoji fəaliyyətə və müəllimlərdə peşə səriştələrinin formalaşdırılması probleminə olan maraq; peşəkar inkişafa və özünü təkmilləşdirməyə can atma, fəallıq, müstəqillik və tədris-idrak fəaliyyəti prosesində təhlil etmək bacarığı. |

Təcrübə zamanı biz gələcək ibtidai sinif müəllimlərində pedaqoji kompetensiyaların formalaşdırılması üçün lazım olan meyarların, bilik və bacarıqların səviyyəsinin fərqli olduğunu gördük. Bu, onların tədris-idrakı və pedaqoji fəaliyyətində özünü göstərir. Hazırlanmış meyarlara və göstəricilərə görə müəllimin təlim prosesində peşə səriştəsinin formalaşmasının üç səviyyəsi ayrılmışdır: 1) intuitiv səviyyə; 2) stereotip-reproduktiv səviyyə; 3) axtarış-yaradıcılıq səviyyəsi. Eksperiment zamanı qarşımıza qoyduğumuz məqsədə uyğun olaraq, hər üç səviyyənin (intuitiv, stereotip-reproduktiv, axtarış-yaradıcılıq) inkişaf dinamikasını yuxarıda göstərilən 5 meyara uyğun olaraq eksperimental və nəzarət qruplarında müəllimin peşə səriştəsinin formalaşdırılması meyarlarına uyğun olaraq izlədik. Eksperimentin nəticəsi aşağıdakı kimi olmuşdur.

**Gələcək ibtidai sinif müəllimlərində peşə səriştələrinin inkişaf səviyyəsinin dinamikası**

Cədvəl 2.4.3.

| Peşə səriştəliliyinin səviyyələri | Eksperimental qrup | Nəzarət qrupu |
|---|---|---|
| 1.intuitiv səviyyə | 7 tələbə (6%) | 28 tələbə (23,9%) |
| 2.stereotip-reproduktiv səviyyə | 68 tələbə (57,6 %) | 74 tələbə (63,3%) |
| 3.axtarış-yaradıcılıq səviyyəsi | 43 tələbə ( 36,4%) | 15 tələbə (12,8%) |

Gələcək ibtidai sinif müəllimlərində peşə kompetensiyalarının inkişaf səviyyəsinin dinamikasına diqqət yetirsək, ekspement qrupunda səviyyənin xeyli inkişafənın şahidi olarıq. Belə ki, müəyyənedici ekspement zamanı gələcək ibtidai sinif müəllimlərində peşə kompetensiyalarının intuitiv səviyyəsi həm eksperiment, həm də kontrol qrupda yüksək olmuşdur: eksperiment qrupunda 118 tələbədən 95-i (81%), kontrol qruplarda isə 117 tələbədən 93-ü (79,5%). Yoxlayıcı eksperiment zamanı eksperimet

qrupunda 7 tələbədə (6%), kontrol qrupda isə 28 tələbədə (23,9%) peşə kompetensiyalarının inkişafı intuitiv səviyyə kimi qiymətləndirilmişdir. Gələcək müəllimlərdə peşə kompetensiyalarının ekspestereotip-reproduktiv səviyyəsi həm eksperiment, həm də kontrol qruplara yüksək olmuşdur. Əgər eksperimentin ilk mərhələsində eksperiment qrupunda bu səviyyə 23 tələbədə (19%) kontrol qrupunda isə 24 tələbədə (20,5%) müəyyən olunmuşdusa da, yekun mərhələdə dinamika xeyli yüksəlmiş, eksperiment qrupunda 68 tələbə (57,6%), kontrol qrupda isə 74 tələbə (63,3%) olmuşdur. Axtarıcılıq-yaradıcılıq səviyyəsi ilkin mərhələdə eksperimentə cəlb edilmiş heç bir tələbədə müəyyənləşdirilməmişdir. Yoxlama mərhələsində eksperiment qrupunda 43 tələbədə (36,4%), kontrol qrupda isə 15 tələbədə (20,5%) peşə kompetensiyalarının yüksək səviyyəsimüəyyən olunmuşdur. Cədvəldən də göründüyü kimi eksperiment qruplarında olduğu kimi, kontrol qruplarında da peşə kompetensiyalarının dinamaikası səviyyələrə uyğun olaraq inkişaf etmişdir. Ancaq eksperimet qruplarında yüksək səviyyənin (axtarıcılıq-yaradıcılıq) kontrol qruplara nisbətən 23,6% çox olması təklif etdiyimiz metodikanın və fərziyyənin düzgünlüyünü təsdiq etməklə yanaşı, həm də təlim prosesində tərəfimizdən irəli sürülən aşağıdakı şərtlərə əməl olunmasını nəzərdə tutur:

- təhsilverici, tərbiyəedici, inkişafetdirici və yaradıcı təhsil mühitinin yaradılması;
- refleksiv fəaliyyət üçün motivasiya imkanlarının öyrənilməsi, motivasiyanın dəyişmə (enmə, stabil qalma, yüksəlmə) səbəblərin təhlil edilməsi və zəruri pedaqoji peşə motivlərinin formalaşdırılması;
- gələcək ibtidai sinif müəllimlərində peşə kompetensiyalarının mərhələ-mərhələ (ayrı-ayrı pedaqoji fənlərin tədrisində, pedaqoji təcrübə müddətində);
- gələcək ibtidai sinif müəllimlərinin peşə fəaliyyətinə onun şəxsi keyfiyyətlərinin nəzərə alınması;
- gələcək ibtidai sinif müəllimlərinin peşəkarlıq səviyyəsinə təsir göstərən faktorların (sosial faktorlar, mənəvi-etik faktorlar, peşəkarlıqla bağlı faktorlar) nəzərə alınması;

- gələcək ibtidai sinif müəllimlərinə peşə kompetensiyalarının inkişaf səviyyəsi ilə yanaşı, həm də müəllimin peşəkarlıq səviyyəsinin aşağı düşmə səbəblərinin (avtoritarlıq, pedaqoji aqressiya, pedaqoji laqeydlik, adekvat olmayan özünüqiymətləndirmə, pedaqoji ehkamçılıq, informasiya passivliyi, konservatiklik, formalizm, təcrübəsizlik və s.) öyrədilməsi;

- gələcək ibtidai sinif müəllimlərində monolji deyil, dialoji mədəniyyətin formalaşdırılması.

Tədqiqat zamanı aşağıdakı nəticələrə gəlinmişdir.

1. Azərbaycanda ali təhsilin uğurla Avropa təhsil məkanına inteqrasiyası yeni paradiqmaların, konsepsiyaların, innovasiyaların, dövlət standartlarının və alternativ tədris planlarının yaranmasına, pedaqoji sistemin yeniləşməsinə, pedaqoji prosesin optimallaşdırılmasına, təlimin keyfiyyətinin yülksəldilməsinə, müəllim kadrları hazırlığının məzmununun təkmilləşdirilməsinə səbəb oldu.

2. "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" (1999), "Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının konsepsiya və strategiyası" (2007), "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası" (Milli Kurikulum) (2006), "Azərbaycan Respublikasında ali təhsilin bakalavr pilləsində ibtidai sinif müəllimi hazırlığı üzrə Çərçivə Kurikulumu" (2008), "Təhsil sahəsində Azərbaycan Respublikasının Qanunu" (2009), "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" (2013) və digər hüquqi-normativ sənədlər zəruru peşə kompetensiyalarına malik müəllim kadrları hazırlığının nəzəri-metodoloji əsası olmaqla yanaşı, həm də onu sürətləndirdi.

3.Azərbaycan pedaqoji elmində müəllimin ictimai-siyasi, sosial-psixoloji, şəxsi və etik-pedaqoji, konstruktiv, kommunikativ, qnostik və təşkilatçılıq bacarıqlarından bəhs edilsə də onun mənimsəməli olduğu pedaqoji kompetensiyaların tədqiqi və təhlil edilməməsi müəyyən olundu.

4. Şagirdlərinin savadlı və səriştəli şəxs kimi formalaşmasının ibtidai sinif müəllimlərinin akademik bacarıqlarından, tədris təcrübəsi və peşəkarlıq səviyyəsinin şərtləndirdiyi müəyyənləşdirildi.

5. İbtidai sinif müəllimlərinin zəruri peşə kompetensiyaları ilə təhsilalanların nailiyyətləri arasında sıx korrelyasiyanın mövcudluğu üzə çıxarıldı.

6. Gələcək müəllimlərin peşə kompetensiyalarının strukturu ilə bağlı Avropa, rus və azərbaycanlı tədqiqatçılar arasında vahid fikir olmasa da, "Təhsil strukturunun nizamlanması" adlı Avropa layihəsində (instrumental, fərdlərarası və sistem kompetensiyalar), Oksford və Kembric universitetlərinin əməkdaşlarının hazırladıqları "Açar kompetensiyalar 2000" proqramında və "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi" (2018) sənədində zəruri peşə kompetensiyalarına malik ibtidai sinif müəllimlərinin hazırlanması ali pedaqoji təhsil sisteminin əsas vəzifələrindən biri hesab olunur.

7. Kompetentlik müəllim şəxsiyyətinin inteqral keyfiyətidir. Bu keyfiyyət cəmiyyətin sosial sifarişi və məktəbin tələbi əsasında zaman-zaman təkmilləşməyə məruz qalır, sosial sifarişə uyğun olaraq pedaqoji bacarıqlar müəyyənləşdirilir.

8. Müasir ibtidai sinif müəllimlərinin əsas kompetensiyalarını aşağıdakı kimi fərqləndirmək olar:

- şagirdlərlə birlikdə öyrənmək, onlarla birlikdə "boy atmaq";
- şagirdlərin müstəqil fəaliyyətlərini planlaşdırmağı və təşkil etməyi bacarmaq;
-şagirdlərdə təlimə və müxtəlif fəaliyyət növlərinə motiv yarada bilmək;
-şagirdlərin yaş və fərdi xüsusiyyətlərini nəzərə almaqla təlim prosesini təşkil etmək;
-layihələşdirmə qabiliyyətinə sahib olmaq və sinifdə şagirdlərin qrup layihə fəaliyyətini təşkil etmək;
-şagirdlərin nailiyyətlərini adekvat qiymətləndirmək bacarığına malik olmaq və s.

9. Gələcək ibtidai sinif müəllimləri hazırlığı üçün müəyyənləşdirilən onlarda aşağıdakı kompetensiyaların formalaşdırılmasını təmin etməlidir: 1) sinifdəki uşaqları birləşdirmək, işi planlaşdırmaq, vəzifələri bölüşdürmək, görülən işə yekun vurmaq; 2) fəaliyyət və ya təhsil sahəsi ilə bağlı fakt, nəzəriyyə, qayda və metodları təhlil etmək; 3) tədris materialını, əyani vasitələri, avadanlığı

seçmək və hazırlamaq, tədris materialını başa düşülən şəkildə, aydın, ifadəli, inandırıcı və ardıcıl şərh etmək, idraki maraqların və mənəvi tələbatların inkişafını stimullaşdırmaq, öyrənmə-idrak fəallığını yüksəltmək; 4) təlim prosesində inkuliziv təhsil texnologiyalarından istifadə etmək, uşaqların düşüncə tərzini başa düşmək, daxili aləmini görmək, onların emosional vəziyyətini obyektiv qiymətlədirmək, yaş, fərdi, psixoloji, anatomik-fizioloji xüsusiyyətlərini müəyyənləşdirmək və təhsil-tərbiyə prosresində nəzərə almaq; 5) pedaqoji situasiyaları və prosesləri dərk etmək, obyektiv qiymətləndirmək, peşə fəaliyyətində informasiya texnologiyalarından istifadə etmək, ümumi və pedaqoji mədəniyyətə malik olmaq, öz təcrübəsini fərdi və qrup şəklində təhlil etmək bacarığına; 6) şagirdlər, onların valideynləri, həmkarları və tədris müəssisəsinin rəhbərliyi ilə pedaqoji cəhətdən məqsədyönlü ünsiyyət yaratmaq; 7) sağlam və şəxsiyyətyönümlü təhsil mühiti formalaşdırmaq, şagirdlərin sosial bacarıqları, hərtərəfli şəxsi inkişafı və özünü ifadəsi üçün münbit şərait yaratmaq; 8) fəaliyyət və ya təhsil sahəsi ilə bağlı yeni problemləri aşkar etmək, onların müxtəlif həll yollarını təhlil etmək, təhsilalanların irəliləyişinin, nailiyyətlərinin qiymətləndirilməsini, tərbiyəlilik səviyyəsini müəyyənləşdirmək və onlara emoional-iradi təsir göstərmək; 9) fəaliyyətini diaqnozlaşdırmaq, proqnozlaşdırmaq və layihələşdirmək, layihələrin həyata keçirilməsi zamanı təşəb-büskarlıq, məsuliyyət, liderlik və komandada işləmək; 10) demokratik prinsiplərə hörmətlə yanaşmaq, insanlara, təbiətə, mənəvi-əxlaqi dəyərlərə həssas və ədalətli münasibət bəsləmək və bunu şagirdlərə də aşılamaq; 11) müxtəlif innovativ təlim resurslarından, texnologiyalarından istifadə etməklə ibtidai siniflərdə təlim prosesinin səmərəliliyini və keyfiyyətini yüksəltmək və s.

10. Müəllimin peşə kompetensiyalarının inkişafı fərdi yaradıcılığın inkişafını, pedaqoji innovasiyalara yiyələnməni, tez-tez dəyişən pedaqoji mühitə uyğunlaşmanı nəzərdə tutur. Bu, çox vacib amildir. Belə ki, cəmiyyətin sosial-iqtisadi və mənəvi inkişafı birbaşa müəllimin səriştılilik səviyyəsindən asılıdır.

11. Gələcək ibtidai sinif müəllimlərində zəruri peşə kompetensiyalarının formalaşdırılmasında dörd illik təlim müddətinin son mərhələsi olan pedaqoji təcrübə mühüm rol oynayır.

Pedaqoji təcrübə müddətində gələcək ibtidai sinif müəllimləri ayrı-ayrı fənlərdən aldıqları nəzəri bilikləri möhkəmləndirir, dərinləşdirir, təcrübə zamanı bunlardan yaradıcı şəkildə istifadə edir, onlarda təlim-tərbiyə işlərini müşahidə və təhlil etmək, şagirdlərin yaş və fərdi xüsusiyyətlərini nəzərə almaqla pedaqoji prosesi təşkil etmək və yeni pedaqoji texnologiyalardan səmərəli istifadə etmək bacarığı formalaşır. Bu bacarıqların hər biri gələcək ibtidai sinif müəllimi üçün zəruri peşə kompetensiyalarıdır. Həmin kompetensiyaların əksəriyyətinin əsası ali məktəblərdə təlim prosesində gələcək ibtidai sinif müəllimlərinə aşılansa da, tam formalaşma, pedaqoji təcrübə müddətində başa çatır.

12. Səriştəli ibtidai sinif müəllimi hazırlığı bir sistemdir və kompleks yanaşma tələb edir. Bu sistemə daxildir:1) ümumtəhsil məktəbində peşəyönümü işinin düzgün təşkili; 2) şagirdlərdə bu peşəyə maraq və meyilin yaradılması; 3) pedaqoji peşəyəyararlılıq; 4) müəllim kadrları hazırlayan ali pedaqoji təhsil müəssisələrində cəmiyyətin sosial sifarişinə adekvat olan tədris resursları (tədris planı, tədris proqramı və dərsliklər); 5) pedaqoji texnologiyaları yüksək peşəkarlıqla pedaqoji prosesə tətbiq edən səriştəli ali məktəb müəllimini; 6) gələcək ibtidai sinif müəllimlərinin pedaqoji təcrübə keçməli olduqları güclü infrastruktura malik ümumtəhsil məktəbi; 7) yüksək ball toplayan tələbələrin müəllimlik peşəsini seçməsinin təşviqi və s.

Son illərdə Azərbaycan təhsilində aparılan uğurlu islahatlar (“Gələcəyin müəllimi” təqaüdünün verilməsi, müəllimlərin əməyinin stimullaşdırılması, müəllimlik peşəsinin stabil əmək haqqı gətirən peşələrdən birinə çevrilməsi, MİQ imtahanlarında obyektivliyin və şəffaflığın təmin oluması və s.) müəllmlik peşəsinin nüfuzunun xeyli yüksəlməsinə səbəb olmuşdur.

Bütün bunlarla yanaşı hesab edirəm ki:

1) müəllm kadrları hazırlığını həyata keçirən bütün ali məktəblərdə “Müəllimlik ixtisasına giriş” fənni tədris edilməlidir;

2) gələcək ibtidai sinif müəllimlərinin peşəkarlıq və səriştəllliik səviyyəsinin yüksəldilməsində mühüm rol oynayan “Müəllimlik ixtisasına giriş” fənni ilə I tədris ilinin ilk semestrində tədris olunmalı,

kursun məzmununa “Müəllimin peşəkarlıq kompetensiyaları” adlı mövzu daxil edilməlidir.

3) gələcək ibtidai sinif müəllimlərində zəruri peşə kompetensiyaları formalaşdırmaq məqsədi ilə təhsildə marketinq xidmətlərinin və ixtisasartırma təhsilinin təşkili ilə bağlı sistemli nəzəri və praktik məsələlərin öyrədilməsi nəzərdə tutulmalıdır.

4) daha keyfiyyətli ibtidai sinif müəllimi hazırlamaq məqsədilə “İbtidai təhsilin kurikulumu”, “Pedaqoji məntiq”, “Ana dilinin tədrisi metodikası”, “Riyaziyyatın tədrisi metodikası” fənlərinin 7 semestrdə keçilməsi daha məqsədəuyğundur;

5) Gələcək ibtidai sinif müəllimlərinin pedaqoji səriştələrinin formalaşmasının mühüm şərtlərindən biri də respublikamızda ümumtəhsil məktəblərinin ibtidai siniflərində müxtəlif fənlər üzrə metodistlərin rəhbərliyi ilə aparılan pedaqoji təcrübədir. Odur ki, gələcək ibtidai sinif müəllimləri üçün pedaqoji təcrübə müddətinin iki mərhələyə bölünərək 14 həftədən 18 həftəyə qədər uzadılmasını məqsədəuyğun hesab edirik: 4 həftə – III tədris ili (passiv təcrübə), 14 həftə – IV tədris ili (aktiv təcrübə).

**Dissertasiyanın məzmunu aşağıdakı məqalə və tezislərdə öz əksini tapmışdır.**


1. Gələcək ibtidai sinif müəllimlərində peşə səriştəliliyinin formalaşdırılması // “Əbdül Əlizadə:ənənəvi təhsildən təfəkkür məktəbinə” Respublika elmi-praktik konfransının materialları. Bakı, 6 dekabr 2017, s.255-258.
2. Формирование профессиональной культуры будущих у чителей начальных классов // “Müasir dünyada inteqrasiya və elmin aktual problemləri” mövzusunda keçirilən Respublika elmi konfransının materialları 22-23 dekabr 2017-ci il. Lənkəran DU. s.288-289.
3. Обусловленность компетенций учителя начальных классов //-Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi Əsərləri.-2019.-№6, -s. 93-97.
4. Формирование коммуникативной компетенции учителя начальных классов //-Bakı: Bakı Qızlar Universitetinin Elmi əsərləri- 2020.-№1,-s. 189-194.

5. Pedaqoji təcrübə müddətində gələcək ibtidai sinif müəllimlərində peşə kompetensiyalarının formalaşdırılması //-Bakı: Peşə təhsili və insan kapitalı. -2020. -№ 4,- s.26-30.
6. Yeni təhsil proqramı və gələcək ibtidai sinif müəllimlərində peşə kompetensiyalarının formalaşdırılmasına verilən tələblər //-Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi Əsərləri.- 2020.-№ 5,-s.163-168.
7. Формирование профессиональных компетенций будущих учителей начальных классов в период педагогической практики //Москва: Актуальные проблемы теории и практики. Серия: гуманитарные науки. Россия: Современная наука. -2021, №2.-с. 106-111.
8. Ali təhsil müəssisələrində ibtidai sinif müəllimləri hazırlığına yeni yanaşma //-Bakı:Məktəbəqədər və ibtidai təhsil. -2021.-№1, -s. 20-26.
9. Yeni təhsil proqramı və gələcək ibtidai sinif müəllimlərində peşə kompetensiyalarının formalaşdırılmasına verilən tələblər //-Bakı: Kurikulum. Elmi-metodik jurnal.-2020.-№3 (51),-s. 42-46.
10. Компетенции и функции учителя начальных классов. //LX international correspondence scientific and practical conference European Research: İnnovation in science, Education and Technology. London , Great Britain, University of Oxford 10-11 February, -2020.-s. 83-85.
11. Müəllimliyə istiqamətləndirmənin səviyyəsinin nəzərə alınması. // Regional inkişafının təmin olunmasında innovativ tendensiyalar: reallıqlar və müasir çağırışlar. Respublika elmi konfransının materialları. Azərbaycan Respublikasının Təhsil Nazirliyi. Mingəçevir Dövlət Universiteti. Mingəçevir: 11-12 dekabr, 2020.-s. 477-479.
12. Формирование педагогической компетентности у будущих учителей начальных классов: историчность и современность // "Cəmiyyətə inteqrasiya və sosial adaptasiya: nəzəri və praktik aspektlər" mövzusunda Respublika elmi konfransı. 26 noyabr 2020-ci il. Sumqayıt Dövlət Universiteti. Sumqayıt:- 2020.-№2.-s. 68-72.

13. Педагогические условия формирования профессиональных компетенций будущих учителей начальных классов. //Международная научно-практическая конференция «Психолого-педагогические проблемы современного образования: пути и способы их решения». Дагестанский Государственный Университет. Москва: 27 fevral 2022. s. 114-118.
14. Gələcək ibtidai sinif müəllimlərinin hazırlığında yeni təhsil proqramlarının rolu (müqayisəli təhlil) // “Qloballama şəraitində müəllim şəxsiyyətinin formaladırılmasında pedaqogika və psixologiya elmlərinin yeri və rolu” mövzusunda Respublika elmi-praktik konfransı. 28-29 aprel 2022. Sumqayıt. SDU. s. 90-93.

Dissertasiyanın müdafiəsi 21 oktyabr 2022-ci il tarixində saat 10:00 Naxçıvan Müəllimlər İnstitutu nəzdində fəaliyyət göstərən FD 2.40 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: Naxçıvan MR, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 1, Az7003, Naxçıvan Müəllimlər İnstitutu

Dissertasiya ilə Naxçıvan Müəllimlər İnstitutunun elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Naxçıvan Müəllimlər İnstitutu rəsmi internet saytında (www.nmi.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 19 09 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 19.09.2022.

Kağızın formatı: 60x84 1/16

Həcm: 38 963 işarə

Tiraj: 100